# 15 iyun - Xalqımızın nicat günü

**Bəşəriyyətin ilk insan məskənlərindən biri olan Azərbaycan çox qədim tarixi-mədəni irsə malikdir. Dövlətçilik ənənələri eramızdan əvvəl birinci minilliyə gedib çıxan Azərbaycan xalqı daim bu tarixi-mədəni irsi qorumuş, öz milli özünəməxsusluğunu saxlaya bilmişdir. Azərbaycan kimi kiçik ölkə dünyanın istər siyasi tarixinə, istərsə də elm, mədəniyyət və incəsənətinə zaman-zaman öz əvəzsiz töhfələrini vermiş, onu daim zənginləşdirmişdir. Lakin xalqların böyüklüyü onun ərazisinin genişliyi və ya əhalisinin sayı ilə deyil, yetirdiyi tarixi şəxsiyyətlərlə ölçülür. Bu baxımdan Azərbaycan xalqı sözsüz ki, böyük bir xalqdır. Çünki hər zaman torpağımız dünya mədəniyyətində, siyasətində, ədəbiyyatında xüsusi yeri olan bəşəri keyfiyyətli şəxsiyyətlər yetirmişdir. XX əsrdə isə Azərbaycan torpağının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri və bəlkə də birincisi ulu öndər Heydər Əliyev olmuşdur.**

Uzun zaman hürriyyət arzusu ilə yaşamış, onun uğrunda saysız itkilərə məruz qalmış, böyük qurbanlar vermiş Azərbaycan xalqı, nəhayət, XX əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə öz müstəqilliyini əldə edə bildi. Ancaq tarix sübut etdi ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətin və mürəkkəbdir.

Azərbaycan rəsmən suveren dövlət elan olunsa da, 1993-cü ilin iyun ayına qədər onun əbədiliyinə təminat yox idi. Həmin dövrdə səriştəsiz rəhbərlik nəticəsində müstəqilliyimiz dəfələrlə süquta uğramaq təhlükəsilə üzləşmişdir. 1993-cü il iyunun 4-də isə Azərbaycanda olan hakimiyyətsizlik, xaos öz apogey nöqtəsinə çatdı. Gəncədə keçmiş korpus komandiri Surət Hüseynova tabe olan qeyri-qanuni silahlı dəstələrlə hökumət qoşunları arasında toqquşma baş verdi. Ölkədə faktiki olaraq vətəndaş müharibəsi başladı.

Bütün belə işlərdən cana yığılan, bu cür yaşayışın mümkünsüzlüyünü dərk edən xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əlirza oğlu Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Ümummilli liderimiz respublika rəhbərliyinə qayıdanda Azərbaycan siyasi-iqtisadi böhran içində boğulan bir məmləkət idi. Elə o zaman ulu öndər çıxışlarının birində belə demişdi: "Azərbaycan bərbad vəziyyətdədir, bəzi adamlar on gündür ki, barmaq-barmağa vurmayıblar. Kabinetlərdə boş-boş şayiələrlə məşğul olurlar. Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərəcəyəm". Bəli, məhz bu fəaliyyətin hesabına Azərbaycan o bəlalardan qurtuldu, yaşadı, inkişaf etdi.

1993-cü ilin ikinci yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər təxirəsalınmaz tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu.

Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq etdi. İqtisadi islahatların mühüm istiqaməti kimi dövlət müəssisələrinin özəlləşdirilməsi və kolxoz-sovxoz torpaqlarının, eləcə də digər əmlakın kəndlilərə paylanması prosesi uğurla həyata keçirilməyə başladı.

1994-cü il sentyabrın 20-də isə Heydər Əliyev dühasının və iradəsinin fenomenal məhsulu olan "Əsrin müqaviləsi" imzalandı. Və cəmi 3 il sonra bu müqavilə əsasında "Çıraq" yatağının ilk quyusundan neft hasilatına başlandı. Yalnız Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi hesabına ərsəyə gələn bu qlobal tədbirlər nəticəsində dövlətimiz sürətlə inkişaf edib qüdrətləndi, xalqımızın rifah halı gündən-günə yüksəldi.

İndi azad və firavan yaşayan Azərbaycan xalqı öz nicatına və tərəqqisinə görə bu böyük şəxsiyyətə əbədi minnətdardır. Xoşbəxtlikdən, bu gün Heydər Əliyev siyasətini layiqlə davam etdirən, onun ideyalarını yaşadan İlham Əliyev kimi Prezidentimiz var, dövlət başçısı seçildiyi gündən ölkəmizin inkişafı naminə əlindən gələni edir. Dövlət başçısının apardığı xarici və daxili siyasət nəticəsində Azərbaycan regionda lider ölkəyə çevrilməklə yanaşı dünyanın ən qabaqcıl dövlətləri sırasında da öz layiqli yerini tutmuşdur. Bu gün xalqımız məhz bu siyasətin davam etdirilməsi sayəsində doğma Azərbaycanımızın dönmədən demokratiya, inkişaf və tərəqqi yolu ilə irəliləyəcəyinə tam əmindir.

**Rahim MUSTAFAYEV,**
**Sumqayıt şəhər sakini,**
**YAP-ın üzvü.**